# Aytəkin Məmmədov

Qürurla anırıq





*Azərbaycanın cəsur oğulları Birinci Qarabağ savaşı, istərsə də 44 günlük Vətən müharibəsində erməni quldurlarının istənilən təxribatının qarşısının alınmasına igidliklə cavab vermiş, düşmənin həmləsini dəf etməyi bacarmışlar. Azərbaycanın müharibə tarixinə adı qızıl hərflərlə yazılan, odlu səngərlərdən erməni quldurlarının başına od ələyən, torpaq uğrunda rəşadət göstərən, şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Aytəkin İsrayıl oğlu Məmmədov olub.*

Aytəkin Məmmədov 29 may 1967-ci ildə Gədəbəy rayonunun Göyəli kəndində dünyaya göz açmışdır.

Uşaqlıq illərində ilin yaz, yay fəsillərində ən çox sevdiyi məkanı atlas geyimli dağlar, yalçın qayalar, buz bulaqların ətrafı olardı. Özü də tək yox, sinif yoldaşları, kənd uşaqları ilə. Aytəkin şeirin, poeziyanın vurğunu idi. Gədəbəy aşıqlarının keçirdikləri məclislərdə çox həvəslə iştirak edərdi. 1984-cü ildə kənd məktəbində orta təhsilini müvəffəq qiymətlərlə başa vurmuş, son zəngdə sevimli müəllimləri qarşısında söz vermişdi ki, fəal həyat mövqeyi tutacaq, yaxşı işi ilə valideynlərinin başını uca edəcəkdir.

Aytəkin təhsilini başa vurduqdan sonra qəlbinin hökmü ilə peşə məktəbində rəngsaz peşəsinə yiyələnmiş və 1985-ci ildə hərbi xidmətə yollanmışdır. Daha sonra isə Əfqanıstan müharibəsinin iştirakçısı olmuş, hərbi texnikadan istifadə edilməsi yollarını mükəmməl öyrənmişdir. Aytəkin Məmmədov 1987-ci ildə hərbi qulluğunu başa vurub Bakı şəhərinə gəlmiş, tikinti idarəsində öz peşəsi üzrə işə düzəlmişdir.

1990-cı ilin əvvəllərində faşist xislətli erməni quldurları müxtəlif istiqamətlərdən şəhər, qəsəbə və kəndlərimizi atəşə məruz qoydular. Günahsız dinc insanlar düşmən tərəfindən güllə yağışına tutulur, erməni dığaları vəhşiliklərini davam etdirir, insanları qətlə yetirməkdən zövq alırdılar. Erməni terrorçuları 200 ilə yaxın idi ki, bu mənfur niyyətlərini davam etdirirdilər. Bu qəddarlığın həyata keçirilməsində xaricdəki havadarlarından da dəstək alırdılar.

Vətənin dar günündə Aytəkin Məmmədov heç cür rahatlıq tapmadı. O, doğmaları ilə halallaşıb birbaşa odlu səngərlərə yollandı. Düşmənə, erməni vandallarına sonsuz nifrət bəsləyirdi. Həmin vaxtlar Aytəkin Xüsusi Təyinatlı Polis Dəstəsinə daxil olmuşdu.

Onun döyüş yolu Göygöl rayonunun Quşçu kəndindən başladı. Düşmən demək olar ki, bu kəndi hər gün atəş altında saxlayır, insanlar vahimə içərisində yaşayırdı.

Ağır döyüşlər gedirdi. Erməni quldurlarının hücumları ara vermirdi. Aytəkin döyüş yoldaşları ilə birlikdə əlverişli mövqe tutmuşdu. Qəflətən erməni dığaları irəliyə cumdu. Vaxtı itirmək olmazdı. Aytəkin Məmmədov pulemyotunu işə salaraq yeri-göyü titrətdi, neçə-neçə düşmən əsgərini leş-leşə söykəndi. Ermənilər geri çəkilməyə məcbur oldular. Qəflətən Aytəkinin Vətən, torpaq eşqi ilə döyünən ürəyi düşmən gülləsinə tuş gəldi, ağır yaralandı. Bir qəhrəman tək gözlərini əbədilik yumdu. Son mənzili isə Göyəli kənd qəbiristanlığı oldu. Məzarı önünə qucaq-qucaq gül-çiçək dəstələri düzüldü.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə Məmmədov Aytəkin İsrayıl oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Hazırda Gədəbəy rayonundakı Göyəli kənd orta məktəbi onun adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur.

**Qədir ASLAN,**
**"Respublika".**